# LAÇIN: Böyük Qayıdışla cənnətə, dağlara, yurda dönüş

## *Dörd ildir xalqımız qürur, sülh və doğma torpaq təntənəsi yaşayır*



***Ana təbiətin yaratdığı nadir gözəllik, sıx meşələr, sıldırım qayalar, gen dərələr, məcrasına sığmayan dağ çayları, qartalların qıy vurduğu zirvələr bu torpağa qədəm qoyan hər kəsi öz sehrinə salır, bir sözlə, bu diyar zəngin təbii sərvətlərə və əsrarəngiz gözəlliyə malikdir. Laçının şərqində Qarabağ silsiləsinin cənub-qərb yamacları, şimalında Mıxtökən silsiləsi uzanır və cənub-qərb hissəsini isə Qarabağ yaylası tutur. Ən yüksək dağ zirvəsi Qızılboğazın hündürlüyü 3594 metrdir. Bol su ehtiyatlarına malik olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək Həkəri çayını (uzunluğu 113 kilometr) yaradır. Həkəri də dağların ətəyindən, gen dərələrdən keçərək Araz çayına qovuşur.***

Təbii ehtiyatlarını sanamaqla qurtarmır. Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqları, zəngin meşələri, ruha dinclik gətirən yaylaqları var. Düşmən Ermənistan otuz ilə yaxın bu gözəllikləri talasa da, dağların əzəmətini, torpağın qüdrətini sındıra bilmədi. Saf iqlimi, uca dağları, zəngin meşələri, buz kimi bulaqları, geniş yaylaları ilə könül oxşayan rayonun təbiəti ilin bütün fəsillərində insanı valeh edir.

**(davamı 9-cu səhifədə)**

# LAÇIN:

## Böyük Qayıdışla cənnətə, dağlara, yurda dönüş

### *Dörd ildir xalqımız qürur, sülh və doğma torpaq təntənəsi yaşayır*






(əvvəli 1-ci səhifədə)

Bu yerlərin maraqlı relyefi var, təbii abidələr, payızın sehrli rənglərinə bürünən ormanlar, qədim mağaralar görənləri heyrətə gətirir. Təxminən 10 min kvadratkilometrdən artıq ərazini əhatə edən "Böyük Qayıdış" Proqramı erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası, yurd yerlərinə əhalinin geri qayıdışının təmin edilməsi, insanların rifah səviyyəsinin yüksəldilməsi və son nəticədə bölgənin dayanıqlı inkişafına nail olunmasını əhatə edir. Dövlətimizin başçısının özünün də qeyd etdiyi kimi: "Mənim də bölgələrə səfərlərim həm nəzarət üçün bir vasitədir, yəni verdiyim tapşırıqlar necə yerinə yetirilir, eyni zamanda növbəti tapşırıqlar, tövsiyələr verilir ki, bizim bəyan etdiyimiz bütün hədəflər - ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilsin. Bir sözlə, Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, eyni zamanda ölkəmizi gücləndirir".

Laçın camaatı mərd, qoçaq, dəyanətli, qonaqpərvərdir. Laçınsız qalan insanların hər biri deyirdi ki, xəyallarımız hər gecə Laçına gedirdi, gəzdiyimiz ormanları, su içdiyimiz bulaqları, hər daşına nəfəsimiz hopmuş evimizi unuda bilmirdik. Gecələr pıçıltı ilə Laçınla söhbət edirdik, deyirdik ki, özgə yerdə yata bilmirik, ay Laçın. Bax beləcə dözümlü, inamlı, ağrısından çox sevincindən pay umduğu bir ömür yaşayan laçınlıların həyat hekayəsi çox mənalı və ibrətamizdir, əsl örnəkdir. Laçın şəhəri əvvəl olduğu kimi bərpa olunub, yəni hər kəsin öz evi necədi, eləcə bərpa olunub. Laçının çıxışı, Həkəri çayına gedən istiqamətdə, gözəl mənzərəli yerdə Laçın məscidi inşa olunacaq. Füsunkar təbiəti, meşələri, dağları, çayları ilə Laçın torpağı cənnəti xatırladır. 30 ilə yaxın yurd həsrəti yaşayan laçınlıların qəti mövqeyi belədir ki, möhtərəm Prezidentimiz İlham Əliyev, Sizin sərkərdəlik şücaətiniz, liderlik bacarığınız, diplomatik istedadınız nəticəsində taleyimizdə yeni bir şərəfli və ləyaqətli səhifə açılır, həsrətini çəkdiyimiz Laçınlı günlərimiz geri qayıdır, xoşbəxt həyatımız başlayır. Biz yalnız köçkünlük həyatımıza son qoymuruq, həm də öz yurdumuzu yenidən qurmağa imkan qazanırıq. Buna görə də sevincimizin həddi-hüdudu yoxdur. Doğma torpaqlarımıza qayıdırıq, quruculuq işlərində iştirak edirik. Fəxr edirik ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Laçın dünyanın ən gözəl, modern və çağdaş bir şəhərinə çevrilir. Biz həmişə inanırdıq, ümidimizi heç zaman itirmədik. Bu inamın və qətiyyətin mahiyyətində dövlətimizin başçısı İlham Əliyevin illərlə yorulmadan, səbirlə, əzmlə, fədakarlıqla apardığı mübarizə dayanır. İstər ölkədaxili, istər də xarici ölkələrdə keçirdiyi bütün görüşlərdə, beynəlxalq tədbirlərdə Prezidentimizin çıxışlarının əsas məğzi Ermənistanın işğalı ilə bağlı olurdu. Hamımız şahid olurduq ki, rəhbərimiz bütün bu illər ərzində hər kəlməsində dəyişməz mövqe göstərir, xalqımızın işğala barışmadığını bəyan edirdi. Bu illərdə Prezidentimizin dediyi sözlər, verdiyi vədlər yerinə yetirilib, mövqeyi isə sonadək dəyişməz qalıb. İşğalın yaratdığı böyük humanitar fəlakətin öhdəsindən gələn və bir sıra çətinliklərə baxmayaraq Azərbaycan inkişaf tempinə görə dünyada xeyli irəlidə dayanır, əhalinin sosial müdafiəsi davamlı olaraq gücləndirilir, həyat şəraiti yaxşılaşır, azad edilən torpaqlara Böyük Qayıdış başlayıb.

Bu tarixi qələbəni və şanlı zəfəri döyüş meydanında qazanan ölkəmizin Prezidenti İlham Əliyev 2023-cü il iyulun 31-də işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi haqqında tarixi sərəncam imzalayıb. Mühüm dövlət sənədində qeyd edilir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilib. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı. Qalib Lider bildirdi ki, biz Laçını həm döyüş meydanında, həm siyasi yollarla qaytardıq. İkinci Qarabağ müharibəsi dövründə Laçın rayonunun işğaldan azad edilməsi əsas vəzifələrdən biri idi və biz faktiki olaraq Laçın rayonunun cənub hissəsini döyüşərək, vuruşaraq azad etdik. Güləbird və digər bir neçə kənd döyüş meydanında azad edilmişdir, biz Laçın-Xankəndi yoluna çıxmışdıq. Məhz bu əməliyyat nəticəsində, eyni zamanda Şuşa şəhərinin erməni işğalçılarından azad edilməsi faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyasına gətirib çıxarmışdır.



Avqustun 26-sı Laçın Şəhəri Günüdür. Qeyd edək ki, işğaldan əvvəl



Laçın şəhərində 2020 fərdi ev, 28 ümumi yaşayış binası olub. 1992-ci il mayın 18-də Ermənistan tərəfindən Laçının işğalı zamanı bu evlərin 1500-dən çoxu dağıntılara məruz qalıb. Düşmən bütün yaşayış məntəqələrini xarabalığa çevirib, tarixi, dini abidələri məqsədli şəkildə uçurub, təbiətə ciddi ziyan vurub. 2022-ci ilin avqust ayında Laçın şəhəri işğalçılardan azad edilən dərhal sonra, sentyabr ayında şəhərin Baş Planına uyğun olaraq burada genişmiqyaslı tikinti-quruculuq başlanılıb, enerji təsərrüfatı qurulub, su xətti çəkilib, küçələr salınıb, yeni evlər tikilib, məktəb, xəstəxana inşa edilib. Artıq infrastruktur layihələrinin böyük bir qismi tamamlanıb. İnşa edilən yeni evlərin gözəl dizaynı və mənzərəsi baxanları heyran edir, sözün əsl mənasında, Laçın ən müasir bir şəhərə çevrilir. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən bərpa və yenidənqurma işləri nəticəsində Laçın nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. 2024-cü ilin ikinci yarısı, 2025-ci ilin əvvəlində Laçının Bəylik kəndinin tikilib istifadəyə verilməsi və oraya 91 ailənin köçürülməsi nəzərdə tutulub.

Laçın şəhərinin bərpasının ikinci mərhələsi başlanıb. Bu günə qədər Laçın şəhərinə 2 003 nəfər köçürülüb və bundan sonra da paralel olaraq hər ay 20 ailənin köçürülməsi nəzərdə tutulub. Zabux kəndinə 2023-cü il ərzində 789 nəfər köçürülüb, Sus kəndinə isə bu ilin may-iyun aylarında 59 ailə köçürülüb. Qorçu Laçın rayonundakı ən böyük qəsəbədir və orada hava limanı tikilir. Qorçunun layihəsi üzərindəki işlər bu il tamamlanır. Yəqin ki, 2025-2026-cı illərdə qəsəbədə tikinti işləri yekunlaşacaq. Yaxın zamanlarda Güləbird kəndinin sakinləri doğma yurdlarına qayıdacaq. Qeyd edək ki, Güləbird kəndi İkinci Qarabağ müharibəsi zamanı işğaldan azad edilib. 2006-cı ilin statistikasına görə Güləbird kəndinin əhalisinin sayı 1460 nəfər olub. Xatırladaq ki, Laçın rayonuna köç ötən ilin may ayında başlayıb. Hazırda Laçın şəhərində iki mindən, Zabux və Susda isə mindən çox sakin məskunlaşıb. Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirlər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə



rəhmət, ailələrinə səbir diləyirlər. İndiyədək Laçın şəhərinə 672 ailənin, yəni 2513 nəfərin daimi məskunlaşması təmin edilib. Laçının içməli su təminatının yaxşılaşdırılması üçün iki istiqamətdə şəhərə su xətti çəkilib. Su xətləri Sarıbaba dağı və Xırmanlar ərazisindəki təbii su mənbələrindən çəkilib və hazırda öz axını ilə birbaşa şəhərə qədər gəlir. Təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması nəzərdə tutulub. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Laçın dağlıq bölgə olduğuna görə ərazinin planlaşdırılması işləri davam etdirilir. Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək. Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək. 2023-cü il aprel ayının 23-ü. Həmin gün Laçın rayonunda, Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi yaradıldı. Bu adi bir gün deyildi, 23 aprel ərazi bütövlüyümüzün tam bərpası demək idi və Azərbaycan bunu beynəlxalq hüquq çərçivəsində etdi, öz ərazisini, öz sərhədlərini özü qorumağa başladı. Laçın Gorus-Şuşa-Kəlbəcər-Qubadlı arasında yerləşən strateji baxımdan çox əhəmiyyətli bir ərazidir. Təbii resurslarla zənginliyi Laçın rayonunun əhəmiyyətini daha da artırır. Coğrafi mənbələrə əsasən deyə bilərik ki, Zəngəzur dağ silsiləsinin bütün zirvələri öz başlanğıcını Laçından götürür. Bu dağ silsiləsi qalın otlaqlı yaylaqlardan, böyük çınqıllıqlardan, yeraltı və yerüstü mədənlərdən, mineral yataqlarından, eləcə də silsilənin ətəkləri isə nadir növlü ağaclara malik enliyarpaqlı meşələrdən və kolluqlardan ibarətdir. Zəngəzur dağ silsiləsinin şimal-şərq və cənub-şərq istiqamətlərində dağlar arasında xeyli sayda böyük şirin su ehtiyatına malik göllər vardır. Həkəri, Bərgüşad, Tərtər və Bazarçay çayları öz mənbələrini həmin göllərdən götürür. Bir çox nağıl və əfsanələrdə adı çəkilən Arpaçay çayı isə öz mənbəyini dəniz səviyyəsindən 3000-4000 metr yüksəklikdən götürür. Göründüyü kimi, bu yüksəkliklər Laçını Qarabağa çox möhkəm tellərlə bağlayıb. Laçın dəhlizi Qarabağla Zəngəzur arasında həm də möhtəşəm bir körpü rolunu oynayır.

Ötən il mayın 28-də dövlətimizin başçısı İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edərək bildirib ki, biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun. Rayonun Zabux, Sus, Güləbird və Qorçu kəndlərinin Baş planına əsasən həmin kəndlərdə də tikinti-quruculuq aparılır, düşmənin dağıtdığı evlərin yerində yeni kəndlər salınır, bu doğma yerlərə Böyük Qayıdışa lap az qalıb. Birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Ümumiyyətlə, yaxın gələcəkdə Laçın rayonuna təqribən 10 minə yaxın, bəlkə də çox keçmiş köçkün qayıdacaq. Laçının yeni dövrü başlayıb. Prezident, Silahlı Qüvvələrin Mü-



zəffər Ali Baş Komandanı İlham Əliyev 2021-ci il fevralın 14-də Laçın rayonuna səfəri zamanı Güləbird kəndində Azərbaycan bayrağını qaldırıb. Dövlətimizin başçısı uzun illər işğalın aradan qaldırılması ilə bağlı ATƏT tərəfindən aparılan danışıqlara işarə edərək deyib ki, həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək bax, buralara gəldik. 1800 kvadratkilometr ərazisi olan Laçın rayonunun zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri bizim milli sərvətimizdir. Təbii ki, Laçın rayonu Azərbaycanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq. Qısa müddət ərzində Laçın şəhəri yenidən qurulub, burada iri infrastruktur layihələri reallaşıb. Doğulub boya-başa çatdığı yurda, dədə-baba ocağına qayıdan Laçın şəhəri ecazkar bir görkəm alır, burada regionda analoqu olmayan modern evlər tikilir, geniş küçələr, parklar salınır, bir sözlə, bütün infrastruktur böyük zövq və şövqlə yaradılır. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinə köçən sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Laçın sakini İradə Hüseynova deyir ki, üç il ərzində belə şəraitin qurulması bizə möcüzə kimi görünür. Bunu yalnız Azərbaycan Prezidenti İlham Əliyev, dövlətimiz edə bilərdi. Bütün laçınlılar bu günü səbirsizliklə gözləyirdi.

**Salman ALIOĞLU,**
**"Respublika".**